**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TAHİRƏ HƏSƏN qızı HÜSEYNOVA**

# KİÇİKYAŞLI ŞAGİRDLƏRDƏ MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞMASI ÜZRƏ İŞİN SİSTEMİ

**5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN-2018**

İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın müxbir üzvü, pedaqogika üzrə elmlərdoktoru, professor **Oruc Qafar oğlu Həsənli**

**Rəsmi opponentlər:** Pedaqogika üzrə elmlər doktoru, professor **Rüfət Lətif oğlu Hüseynzadə**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Nəzakət Rəsul qızı Yusifova**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin "Pedaqogika" kafedrası**

Müdafiə «__» ________ 2018-ci il tarixdə saat $11^{00}$ -da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az. 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, I mərtəbə, Böyük Akt zalı

**Dissertasiya** ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

**Avtoreferat** «___» _________ 2018-ci il tarixdə göndərilmişdir.

B/FD.02.121 Dissertasiya
Şurasının elmi katibi: **dos. İ.Z.CƏFƏROV**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqillik qazandığımız respublikaınızda yetişən gənc nəslin mənəvi tərbiyəsi, mənəvi mədəniyyətinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, mənəvi mədəniyyət olmadan qazanılan təhsilin də, əldə edilmiş biliklərin də əhəmiyyəti və səmərəsi olmayacaq. Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikası Gənclərinin I Ümumrespublika Forumunda bu barədə demişdir: "Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir... Mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə, bəlkə də, keçmiş illərdən daha çox lazımdır"[1].

Göründüyü kimi, Ulu öndər mənəviyyat dedikdə, buraya insanı ucaldan, onu zənginləşdirən milli Azərbaycan vətənpərvərliyini, milli ləyaqəti, hərbi vətənpərvərliyi, milli iftixarı, milli dəyanət və vicdanı, düşmənə nifrəti, xalqımızın adət və ənənələrini, ana dilini dərindən bilməyi, milli və ümumbəşəri mənəvi dəyərlərin vəhdətinin təmin edilməsini, böyüyə hörməti, düzlük və doğruçuluğu və s. bu kimi keyfiyyətləri daxil edir. Xalqımızın tarixinin bütün mərhələlərində yüksək mənəviyyat olmuş, mənəvi keyfiyyətlər gənclərə aşılanmışdır. Bəli, bu gün mənəvi tərbiyə daha çox lazımdır və mənəvi tərbiyə bu gün xüsusilə daha böyük aktuallıq kəsb edir.

Ümummilli lider Heydər Əliyevin təbirincə desək, yetişən nəslin yüksək mənəvi əsaslara yiyələnməsi müstəqil, suveren və demokratik dəyişikliklər yolu ilə gedən respublikamızın ümumtəhsil məktəblərinin təlim və tərbiyə üzrə təcrübəsində çox əhəmiyyətli yer tutmalı, xüsusilə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasında başlıca vəzifələrdən biri olmalıdır. Ölkənin gələcəyinin etibarlı əllərdə olması bu gün yetişən nəslin, övladlarımızın mənəvi simasının yeniləşməsindən, onların

---

[1]Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq. «Azərbaycan» qəz. Bakı, 1996, 6 fevral.

həyat mövqelərinindüzgünmüəyyənləşdirilməsindən çox asılıdır. Bu, isə öz-özünə yaranmır. Bu, proses insanın nümunəvi fəaliyyəti ilə əlaqədardır və onunla şərtlənir. Belə bir praktik fəaliyyətin yaxşı təşkili isə onun çox bacarıqla qurulmuş pedaqoji stimullaşdırılmasından asılıdır.

Məsələyə bu kontekstdən yanaşdıqda deməliyik ki, ümumtəhsil məktəblərinə gətirilən yeni ideyalar içərisində mənəvi mədəniyyətlə bağlı olan elmi ideyalar da yer almalıdır. Hansı ki, bu mənəvi mədəniyyət nümunələri həm milli, həm də ümumbəşəri dəyərlərə əsaslanan bilik, bacarıq, vərdişlər sistemini özündə ehtiva etməlidirir. Ona görə ki, bu gün Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiyası üçün belə zəruri yanaşmalara ehtiyac vardır. Belə bir təqdirdə ölkəmizin milli və bəşəri dəyərlərinin sintezinin beynəlxalq təcrübəyə inteqrasiya edilməsi təcrübəsinin yaradılması lazım gəlir. Əslində bu təcrübə ölkəmizdə həyata keçirilən kurikulum siyasətində bu və ya digər dərəcədə mümkündür. Yəni "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas xəttinə görə şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi qarşıda duran vəzifələrdəndir. Şəxsiyyətyönümlü təlimin yaradılmasında isə milli-mənəvi dəyərlərdən istifadə eləmək başlıca şərtlərdən hesab olunur. Ona görə ki, kiçikyaşlı şagirdlərdə mənəvi mədəniyyət elementləri aşılamadan onların şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmək olmaz. Yalnız bu yolla maddi kapitalın insan kapitalına çevrilməsi təcrübəsini reallaşdırmaq mümkündür.

Ölkəmizin Prezidenti cənab İlham Əliyevin sərəncam və çıxışlarında "maddi kapitalın insan kapitalına çevrilməsi" ideyası irəli sürülür. Bu, ilk növbədə, insanlarımızda insanlıq tərbiyəsi, mənəviyyat tərbiyəsidir. Bu, mənəvi cəhətdən zəngin, əxlaqca saf, fiziki cəhətdən sağlam insanlar yetişdirmək ideyasıdır.

Prezidentin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda milli-mənəvi dəyərlərə yiyələnməklə gənc nəslin mənəvi-əxlaqi tərbiyəsi əsas vəzifələrdən biri kimi belə qeyd olunur: "Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir"[1].

Demokratik cəmiyyətdə yaşadığımız hazırkı şəraitdə sivilizasiyanın

---

[1] Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il

tələblərini gözləmək lazım gəlir. Çünki sivil mədəniyyət yetişən nəslin əxlaqi-etik sifətlərini həm formalaşdırır, həm də təkmilləşdirir. Sivilizasiyanın tələblərini gözləməklə mənəvi mədəniyyətə yönəldilən ibtidai sinif şagirdləri modern səviyyədə mənəvi mədəniyyət elementlərinə yiyələnirlər və bu zaman onların qloballaşma mühitinə istiqamət almalarından danışmaq olar. Başqa sözlə desək, yetişən nəslin mənəvi mədəniyyətə yiyələndirilməsi onların qlobal səviyyədə inkişafını təmin edən amillər kimi dəyərləndirilir.

Tələb olunur ki, bugünkü məktəbli dünənkindən daha bilikli, daha hazırlıqlı olsun, sabah bugünkündən daha ağıllı və daha hazırlıqlı olsun. Müasir məktəbli geniş elmi-mədəni dünyagörüşünə sahib olmalı, bəşəri və milli-mənəvi dəyərləri mənimsəməli, hər yerdə yüksək mədəni davranış nümayiş etdirməli və daim mənəvi mədəniyyət səviyyəsini artırmalıdır. O Vətənini, xalqını, insanları dərin məhəbbətlə sevməli, xalqın mənəvi dəyərlərinə, o cümlədən dilinə, dininə, bayrağına, himninə, gerbinə, adət və ənənələrinə hörmət etməli və onlara sadiq olmalıdır.

Mənəvi mədəniyyət mənəvi tərbiyənin nəticəsi kimi özünü göstərir. O, mütəmadi olaraq fasiləsiz təkmilləşmə, inkişaf prosesində olmalıdır. Çünki mənəvi mədəniyyət daha çox insanın əməli, fəaliyyəti, praktik işi ilə bağlıdır. Bu prosesin isə daha çox və ən mühüm iştirakçıları kiçikyaşlı məktəblilərdir.

Ümumtəhsil məktəblərində tədris edilən bütün fənlər, eləcə də dərsdənkənar işlər və məktəbdənkənar tərbiyəvi tədbirlər şagirdlərin mənəvi mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayır. Mənəvi mədəniyyət olmadan qazanılan biliyin də əhəmiyyəti ola bilməz. Mənəviyyatsız bilik insanın inkişafını təmin edə bilməz. Yada salsaq görərik ki, keçmiş tariximizdən bizə qalan tarixi simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün ən güclü örnək edən, bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır. Bu mənada yetişən nəslin, xüsusilə, kiçikyaşlı məktəblilərin mənəvi cəhətdən saflaşdırılması, onların mənəviyyatca bütövləşdirilməsi mühüm aktuallıq kəsb edir.

Təhsilimizin Avropa təhsilinə inteqrasiyası ilə əlaqədar olaraq təhsil sisteminin strukturunda, təhsilin məzmununda, forma və metodlarında qlobal dəyişikliklər baş verməkdədir. "Azərbaycan -2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda deyildiyi kimi, şagirdlərin idrak fəallığının, "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədilə sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Əlbəttə ki, hazırda zamanın tələblərinə uyğun surətdə ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsası qoyulmalıdır. Bunun üçün in-

san kapitalına diqqət artırılmalıdır ki, bu da təhsil sisteminin təkmilləşdirilməsini, həyat boyu təhsilə, mənəvi mədəniyyətin inkişafına diqqətin artırılmasını tələb edir[1].

Məktəbin bütün tədris proqramı hadisələrə idrakın gücü ilə qiymət vermək vərdişləri, şüurlu intizam yaratmaq, məntiqi təfəkkürü inkişaf etdirmək, bir sözlə mənəvi insanı yetişdirmək, onu səmərəli fəaliyyət sahələrinə istiqamətləndirmək məqsədinə xidmət etməlidir.Təhlil və müşahidələrimiz göstərir ki, mənəvi mədəniyyət üzrə ümumtəhsil məktəblərimizdə, xüsusilə ibtidai siniflərdə kifayət qədər iş aparılmır.

Müəllimlər daha çox təlim məsələsinə fikir verir, tərbiyənin mövcud tərkib hissələri üzrə işləri həyata keçirirlər. Məhz elə bu baxımdan şagirdlərdə mənəvi mədəniyyətin formalaşması ilə bağlı tədqiqatlar aparılmamış, mövzu kompleks şəkildə araşdırılmamış, elmi şərhini gözləyən bir sıra məsələlərə kifayət qədər aydınlıq gətirilməmişdir. İstər təlim prosesində, istərsə də sinifdənxaric işlərdə şagirdlərdə mənəvi mədəniyyətin formalaşmasının imkan və yollarının təhlil edilməsi mövzunun aktuallığını şərtləndirən əsas amillərdir.

Xalqımızın zəngin tarixini, mədəniyyətini, mənəvi dəyərlərini şagirdlərə öyrətmək, onları həmin ənənələr ruhunda tərbiyə etmək bu günün ən vacib məsələlərindən biridir. Ona görə də bu kimi məsələlərin tədqiqi böyük aktuallıq kəsb edir. “Kiçikyaşlı şagirdlərdə mənəvi mədəniyyətin formalaşması üzrə işin sistemi” mövzusunun tədqiqat obyekti kimi müəyyənləşdirilməsi və bu istiqamətdə hərtərəfli tədqiqatın aparılması da məhz bu ehtiyacdan irəli gəlir.

**Mövzunun tədqiqi tarixi**. Bu sahədə aparılan tədqiqat işlərində mövzumuzla bağlı müəyyən araşdırmalara rast gəlmək mümkündür.

Bu cəhətdən mövzunun işlənmə səviyyəsi haqqında deyə bilərik ki, problem ilk növbədə son dövrlərdə yazılan "Pedaqogika" dərslik və dərs vəsaitlərində öz əksini müxtəlif yönlərdən tapmışdır. **Ə.Ə.Ağayev**[2]**, L.N.Qasımova**[3]**, R.M.Mahmudova, A.N.Abbasov**[4]**, H.Ə.Əlizadə, İ.İ.Əli-**

---

1 “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı)/ “Azərbaycan müəllimi” qəz., 20 yanvar, 2013-cü il

2 Ağayev Ə.Ə. Pedaqogika. Bakı: Maarif, 2007, 345 s.

3 Qasımova L.N., Mahmudova R.M. Pedaqogika . Dərslik. Bakı: BDU, 2013

4 Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Bakı-2000 nəşriyyatı, 2000, 202 s.

**yev[1], F.N.İbrahimov, R.L.Hüseynzadə[2], M.A.İsmixanov [3], H.H.Əhmədov[4], F.A.Rüstəmov[5], F.B. Sadıqov[6] və başqaları mənəvi tərbiyə məsələsini mənəvi mədəniyyətin əsası kimi, tərbiyə işinin məzmunu və tərkib hissəsi kimi şərh etmişlər. Bəzi pedaqoji kitablarda əxlaq tərbiyəsi və mənəvi tərbiyə anlayışları bir birini əvəzləyərək eyni bir anlayış kimi verilmiş**, yaxud mahiyyət şərh edilmədən anlayışlar bir sinonim kimi verilmişdir.

Mənəvi tərbiyə problemlərinə həsr edilmiş dissertasiyalar, monoqrafiyalar da yazılmışdır. Bu sahədə prof. Ləzifə Qasımovanın tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Namizədlik və doktorluq dissertasiyasını bu problemə həsr edən alimin bu sahədə bir neçə monoqrafiya və kitabı, xeyli elmi məqaləsi nəşr olunmuşdur[7].

Tükiyə vətəndaşı Mehmet Ali oğlu Çinar "Ümumtəhsil məktəb şagirdlərində əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkan və yolları" (Türkiyə və Azərbaycan məktəblərinin materialları əsasında) mövzusunda fəlsəfə doktoru proqramı əsasında dissertasiya müdafiə etmişdir ki, burada öyrənilən predmet Türkiyə və Azərbaycan məktəbləri ilə müqayisəli şəkildə təhlil edilmişdir[8].

Rəşad Qabil oğlu Babayevin "Fiziki tərbiyə fənninin tədrisi prosesində yeniyetmələrin milli-mənəvi tərbiyəsi üzrə işin imkanları və yolları" mövzusunda (2010), İbrahim Yusuf oğlu Kurtun "Azərbaycan və Türkiyə uşaq ədəbiyyatında mənəvi tərbiyə məsələləri" mövzusunda (2010), Sobren Kandi Farhad İsmail oğlu "Təlim prosesində ibtidai sinif şagirdlərinin islam mənəvi dəyərləri əsasında tərbiyə olunması" mövzusunda (2011), Həbibə Əyyub qızı Məhərrəmovanın "N.Tusinin pedaqoji irsindən istifadənin

---

[1] Əliyev İ.İ. İbtidai təhsilin pedaqogikası.Naxçıvan, 2012, 222 s.
[2] İbrahimov F. N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik, 2 clddə. I cild. 750 s., II c. 547 s. Bakı: Mütərcim, 2013
[3] İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: ADPU, 2012, 304 s.
[4] Əhmədov H.H. Pedaqogika. Bakı: Elm, 2000, 340 s.
[5] Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Elm və təhsil, 2010, 464 s.
[6] Sadlqov F.B. Pedaqogika (təlim, təhsil, tərbiyə). Bakı: Bakı Biznes Universiteti, 2006, 556 s.
[7] Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: 2004, 220 s.
[8] Mehmet Ali Çinar. Ümumtəhsil məktəb şagirdlərində əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkan və yolları (Türkiyə və Azərbaycan məktəblərinin materialları əsasında). Ped.üzrə fəl. doktoru avtoreferatı, Bakı, 2015, 27 s.

V-XI sinif şagirdlərinin əxlaq tərbiyəsinə təsiri" mövzusunda (2012), Ertaş Hasan oğlu Sofuoğlunun "Yeniyetmələrin dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə üzrə işin sistemi" mövzusunda (2014) dissertasiyalarında şagirdlərin əxlaqi-mənəvi tərbiyəsi məsələlərinə bu və ya başqa yöndən müraciət edilmiş, faydalı tədqiqlər və araşdırmalar aparılmışdır. Lakinaparılan tədqiqat işləri daha çox mənəvi tərbiyə problemlərinə həsr edilmiş, mənəvi mədəniyyətin formalaşdırılması məsələləri ciddi araşdırılmamışdır. Hesab edirik ki, qeyd edilən problem ilk dəfədir ki, sistemli şəkildə tədqiq olunur.

Prof. Sərdar Quliyev, prof. Akif Abbasov, prof. Ağahüseyn Həsənov, prof. Oruc Həsənli, prof. Rüfət Hüseynzadə və başqaları mənəvi tərbiyə və əxlaq tərbiyəsi problemlərinin müəyyən sahələrini ətraflı işləmiş, kitablar elmi məqalələr yazmış, ancaq mənəvi mədəniyyətin formalşdırılması problemlərini araşdırmamışlar.

Tədqiqat mövzumuzla bağlı yazılmış dissertasiya və ya tədqiqat işlərini, elmi əsərləri ümumiləşdirərək aşağıdakı fikirləri söyləyə bilərik:

-Mənəvi və əxlaq tərbiyəsi bir çox əsərlərdə, tədqiqat işlərində bir sinonim kimi işlədilmişdir. Bəzən də "mənəvi tərbiyə" yerinə "əxlaq tərbiyəsi" ifadəsi işlədilmişdir. Hansı ki, biz tədqiqat işimizdə bu məsələlərə aydınlıq gətirmişik; .

-Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında müəllimin şəxsi nümunəsinin böyük əhəmiyyəti vardır. Tədqiqatlarda bu məsələyə də çox az toxunulmuşdur.

-İbtidai siniflərdə təlimin tərbiyəedici imkanları genişdir. Kiçikyaşlı şagirdlərin mənəvi mədəniyyətinin formalaşdırılması da bu işin tərkib hissələrindən biridir. Tədqiqat işlərində bu sahəyə diqqətin də yetirilməməsi xüsusi qeyd edilməlidir.

Bütün bunları nəzərə alaraq biz tədqiqatımızı kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasına həsr etdik. Məhz ona görə də ilk dəfə tərəfimizdən araşdırılan, sistemli və geniş tədqiq edilən dissertasiya işi "Kiçikyaşlı şagirdlərdə mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin sistemi" adlanır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ümumtəhsil məktəblərinin ibtidai siniflərində şagirdlərin mənəvi tərbiyəsi və mənəvi mədəniyyət prosesi təşkil edir. Tədqiqatın predmetini isəümumtəhsil məktəblərinin ibtidai siniflərində şagirdlərin mənəvi mədəniyyət prosesinin təhlili, həm təlim, həm də sinifdənxaric işlər prosesində bu təcrübənin imkan və yollarının öyrənilməsi və tədqiqi məsələləri, bundan əlavə bu sahədə

sinif müəlliminin fəaliyyətini, xüsusilə onun peşəkar səriştəliliyinin mahiyyətini, vəzifələrini tədqiq edib araşdırmaq təşkil edir.

**Tədqiqatın fərziyyəsi.** Tədqiqata yanaşmada aşağıdakı işçi fərziyyəsi irəli sürülmüşdür:

-İbtidai siniflərdə, fənlərin tədrisi prosesində, tərbiyəvi tədbirlərdə mənəvi-əxlaqi dəyərlər şagirdlərə məqsədyönlü, planlı və mütəşəkkil olaraq aşılanarsa, ən zəruri vərdişlər şagird şəxsiyyətinin nümunəvi davranışları ilə möhkəmləndirilərsə, mənəvi davranış və hərəkətlərdə sabitlik qazanılarsa və onlar adətlər halına keçərsə, mənəvi yetkinlik, mənəvi mədəniyyət cizgiləri aşkara çıxarılarsa;

-Təlim-tərbiyə prosesində seçilən mövzuların mənəvi tərbiyə imkanları üzə çıxarılarsa və onlardan səmərəli və səriştəyə əsaslanan bir şəkildə istifadə edilərsə şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına əlverişli şərait və imkan yaranar, təlim-tərbiyə keyfiyyəti yüksələr, mənəvi mədəniyyətin formalaşması praktik olaraq həyata keçər;

-Tədris materiallarının məzmunundakı mənəvi tərbiyə imkanlarının reallaşdırılması şagirdlərin ictimai təcrübəni mənimsəmə işinə daha fəal və səmərəli şəkildə qoşulmasına kömək edər;

-Fənlərin tədrisi zamanı şagirdlərin mənəvi tərbiyəsinin zənginləşdirilməsinə, ümummədəni səviyyələrinin artırılmasına imkan yaranar və bu zaman onlarda təlimə maraq güclənər, həyata, ətraf aləmə baxışları təkmilləşər, mənəvi mədəniyyətləri formalaşar;

-Mənəvi mədəniyyətin formalaşdırılmasında sinif müəlliminin özünün bu sahədə şəxsi nümunəsi mənəvi mədəniyyətin formalaşdırılmasını xeyli dərəcədə yüksəldər.

**Tədqiqatın məqsəd və vəzifələri**. Kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasının məzmununu, forma və metodlarını tədqiq etmək, bu sahədə sinif müəlliminin səmərəli, səriştəli, peşəkar fəaliyyətini təhlil edib öyrənmək tədqiqatın əsas məqsədi kimi qarşıya qoyulmuşdur.

Bu məqsəd aşağıdakı vəzifələrin həllini şərtləndirmişdir:

1. Məktəbdə tərbiyə prosesinin ümummədəni məzmun aspekti və təlim prosesində şagirdlərin mənəvi simasının formalaşdırılması ilə bağlı sosial - fəlsəfi, pedaqoji və metodiki ədəbiyyatı öyrənmək;

2. Təlim və dərsdənkənar işlər prosesində şagirdlərin mənəvi tərbiyəsi üzrə işin mahiyyətinin xüsusiyyətlərini müasir elmi - nəzəri fikir baxımından xarakterizə etmək;

3.Şagirdlərin tərbiyə olunmasında fənlərin tərbiyəedici rolunu aşkar-

lamaq, mənəvi mədəniyyət tərbiyəsinin ümumtərbiyə sisteminin tərkib hissəsi olduğunu açıqlamaq;

4.İbtidai siniflərdə tədris prosesində şagirdlərin mənəvi mədəniyyət tərbiyəsi üzrə mövcud vəziyyəti öyrənmək, bu sahə üzrə işin səmərəliliyini yüksəltmək məqsədi ilə əsas istiqamətləri müəyyənləşdirmək;

5.İbtidai təhsildə fənlərin tədrisində və dərsdənkənar işlərdə mənəvi mədəniyyətin formaşdırlması işinə xüsusi diqqət verməklə mənəvi tərbiyənin məzmun, forma və metodlarını, vasitə və üsullarını aşkara çıxarmaq;

6. İbtidai siniflərin təlim prosesində, eləcə də dərsdən və məktəbdənkənar tədbirlər zamanı şagirdlərlə mənəvi mədəniyyəti üzrə aparılan işlərin imkanların və yollarını müəyyənləşdirmək;

7.Mənəvi mədəniyyətin formalaşdırılmasında sinif müəlliminin səriştəlilik və peşəkarlıq səviyyəsini öyrənmək.

Tədqiqatın metodoloji əsasını şəxsiyyətin inkişafına xidmət edən dialektik təlim metodları, şagird şəxsiyyətinin mənəvi mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayan əxlaqi-mənəvi normaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqatda qoyulan məqsəd və vəzifələrin həlli yollarına nail olmaq üçün aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1. Nəzəri təhlil. Təhlil edilən məsələ ilə bağlı dövlət direktivləri öyrənilmiş, elmi-pedaqoji ədəbiyyat ibtidai siniflərin dərslikləri mövzu baxımından təhlil edilmiş, müqayisə və ümumiləşdirilmələr aparılaraq sağlam nəticələr çixarılmış, səmərəli təklif və tövsiyələr irəli sürülmüşdür.

2. Pedaqoji müşahidə. Naxçıvan Muxtar Respublikasının 1,2, 4, 5, 10, 12 saylı şəhər, Babək rayonunun Babək qəsəbə, Culfa rayonunun Ərəzin kəndi və Şərur rayonunun Ələkli kənd məktəblərində müşahidələr və müvafiq ümumiləşdirmələr aparılmışdır.

3. Pedaqoji müsahibə və anket sorğusu. Problemi öyrənmək üçün şagirdlər, valideynlər, müəllimlər, məktəb rəhbərlərindən müsahibə, anket sorğusu, metodları ilə faktlar və məlumatlar toplanılmışdır.

Məlumatlar müqayisə edilmiş, anoloji və fərqli, tipik olmayan cəhətlər üzə çıxarılmış, təhlil edilmişdir.

4. Məktəb sənədlərinin öyrənilməsi. Məktəb rəhbərlərinin, sinif müəllimlərinin, dərnək rəhbərlərinin iş planları, sinif jurnalları, şagirdlərin fəaliyyət məhsulları və bir sıra digər materiallar nəzərdən keçirilərək öyrənilmişdir.

5. Pedaqoji eksperiment. Məktəblilərin mənəvi mədəniyyət tərbiyəvi-

lik səviyyəsini araşdırmaq məqsədilə müşahidə, müsahibə və nəzəri təhlil zamanı alınan nəticələrin düzgünlüyünü yoxlamaq üçün pedaqoji eksperimentin müəyyənləşdirici, öyrədici və yoxlayıcı mərhələlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi onunla müəyyənləşir ki, ilk dəfə olaraq:

- ümumtəhsil məktəblərinin ibtidai siniflərində fənlərin tədrisi zamanı şagirdlərin mənəvi mədəniyyətinin ümumi və spesifik əlamətləri, onun məzmun xüsusiyyətləri aşkar olumuşdur;
- ibtidai siniflərdə mənəvi tərbiyə işinin digər ümumtəhsil fənləri ilə qarşılıqlı inteqrasiya və diferensasiyası müəyyən edilmişdir;
- təhlil və ümumiləşdirmələr nəticəsində ibtidai təhsildə mənəvi mədəniyyət tərbiyəsinin imkanları, onun nəzəriyyəsi və təcrübəsi açıqlanmışdır;
- müxtəlif mənbələrə əsaslanaraq insanın mənəvi mahiyyəti tam halda aktuallaşdırılmışdır;
- mənəvi tərbiyənin əsas strukturu, bir sıra məzmun xüsusiyyətləri təklif olunmuş, həmçinin bu istiqamətdə aparılan işlərin bir - biri ilə sıx vəhdətdə olan üç mühüm komponenti-emosional, intellektual və iradi komponentləri təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi sahəsi üzrə elmi bilikləri genişləndirir və dəqiqləşdirir.

Tədqiqatın praktik əhəmiyyəti onunla müəyyən olunur ki, tədqiq olunan problemin ümumpedaqoji istiqaməti ilə ümumtəhsil məktəbləri şagirdlərinin ibtidai siniflərində aparılan mənəvi mədəniyyət təcrübəsindən müəllimlər səmərəli istifadə edə bilərlər. Bundan başqa tədqiqat materaiallarından digər pedaqoji kollektivlərdə, habelə ailə tərbiyəsində, məktəbəqədər təhsil müəssisələrində istifadə edilə bilər.

Tədqiqat zamanı verilən tövsiyələr və onların reallaşdırılması, xüsusilə, ibtidai təhsil üzrə mənəvi tərbiyə imkanlarının aktuallaşdırılmasının metodologiyasının işlənilməsi məktəb kollektivlərimizin istifadəsində faydalı olar.

Tədqiqat materaiallarından pedaqoji dərsliklərin yazılmasında, metodik və dərs vəsaitlərinin yazılmasında istifadə oluna bilər.

Tədqiqatın nəticələrindən ibtidai təhsil ilə bağlı proqram və dərsliklərin yazılmasında, təlimin səmərəli təşkilində, kadr hazırlığında, gələcək tədqiqatlarda istifadə olunması məqsədəuyğundur.

Dissertasiya sinif müəllimlərinə, digər fənlərin müəllimlərinə, məktəb ictimai təşkilatlarının rəhbərlərinə, dərnək rəhbərlərinə əməli köməklik

göstərəcəkdir.

**Müdafiəyə çıxarılan müddəalar** tədqiqatın əsas nəticələrinin yekununu əks etdirir ki, bu da müasir şəraitdə ibtidai təhsilin mənəvi tərbiyə imkanlarına bir tam, bir sistem kimi yanaşmağı tələb edir. Onlar aşağıdakılardan ibarətdir.

1. Müasir təhsil sistemi şagirdlərin sosial - ümumpedaqoji təsirlər sistemində mənəvi tərbiyəsi ilə müşayiət olunur. Bu tərbiyə istiqaməti milli və bəşəri dəyərlərə, xalqın adət və ənənələlərinə, davranış normalarına, humanist və ümumbəşəri ideallara bağlıdır ki, bu da mənəvi mədəniyyətin əsasını təşkil edir.

2. Kurikulumun məzmunu müasir ibtidai təhsildə tam öz əksini taparaq təhsilin məzmununu zənginləşdirir, məktəblilərin mənəvi tərbiyəsini daha da təkmilləşdirmək üçün əlverişli imkanlar yaradır.

3. İbtidai siniflərin təlim prosesində mövzuların tədrisində şagirdlərə tərbiyə komponentlərinin aşılanma imkanları çox böyükdür. Hər bir dərsin tərbiyəlilik səviyyəsi yüksək olmalı, hər bir dərs şagirdləri mənəvi mədəniyyətə sövq etməlidir.

4. Sinif müəllimi mənəviyyat, əxlaq, ədəb kimi anlayışlara diqqətlə yanaşmalı, onların mahiyyətinə uyğun olaraq iş aparmalıdır.

5. İbtidai təhsildə fənlərin tədrisində və dərsdənkənar tədbirlərdə şagirdlərin mənəvi mədəniyyətinin formalaşdırılması üçün sinif müəlliminin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, səriştəliliyinin artırılması xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın aprobasiyası**. Dissertasyanın mövzusu 13 yanvar 2012-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin Elmi Şürasında və Respublika Elmi Tədqiqatların təşkili və Əlaqələndirilməsi Şurasının təhsil tədqiqatları üzrə problem şurasının 29 may 2012-ci il tarixli iclasında təsdiq edilmişdir. İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları 14 elmi məqalə və tezislərdə öz əksini tapmışdır. Müəllif tədqiqatın nəticələri ilə bağlı "Doktorantların və gənc tədqiqatçıların XV Respublika Elmi konfransı"nda (Bakı, 2011), "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda Respublika Elmi-praktik konfransında (Bakı, 28 iyun 2012-cı il), Bakı Dövlət Universitetinin "Pedaqogika" kafedrasının təşkil etdiyi elmi-praktik konfransda (4 may, 2016) iştirak və çıxış etmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 3 fəsil, o cümlədən, 8 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində tədqiqatın aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri ətraflı şərh olunur, tədqiqatın nəzəri və metodoloji əsasları, elmi yeniliyi, praktik əhəmiyyəti, müdafiəyə çıxarılan məsələlər, fərziyyə və aprobasiyası haqqında elmi izahlar və məlumatlar verilir.

Dissertasiyanın birinci fəsli **"Mənəvi mədəniyyətin elmi-nəzəri və pedaqoji əsasları"** adlanır ki, bu fəsil 3 yarımfəsildən ibarətdir .

I fəslin **"Mənəvi mədəniyyətin mahiyyəti və elmi nəzəri əsasları"** adlanan I yarımfəslində mənəvi mədəniyyətin metodoloji, pedaqoji əsasları təhlil edilir, mənəvi mədəniyyətin mahiyyəti, məqsədi elmi cəhətdən şərh olunur, mənəviyyat, mənəvi tərbiyə, əxlaq, ədəb kimi pedaqoji anlayışlara aydınlıq gətirilir.

Mənəvi mədəniyyət anlayışının məna çalarları ədəbiyyatda müxtəlif tərzlərdə şərh edilir. Ümumtürk əxlaqını özündə ehtiva edən bu sözə qədim türk mənbələrində rast gəlmək olar. Ədəb-ərkanına, nümunəvi əxlaqına, örnək davranışına, səliqə-səhmanına, bilikli, bacarıqlı olmağına, sivil dünyagörüşünə rəğmən nümunəvi olan insan mədəni insan hesab olunur.

Ümumilikdə götürüldükdə mədəniyyət cəmiyyətin inkişafının ən müasir, ən yüksək səviyyəsi olmaqla insanların yaratdığı və nəsildən-nəsilə ötürdükləri maddi və milli-mənəvi dəyərlər sistemidir. Hansı ki, bunları öz həyat və fəaliyyətində yaşadan insanlar mənəvi sərvətlərə malik olan mədəniyyət daşıyıcılarıdır.

Mənəvi mədəniyyət hazırki şəraitdə yetişən gənc nəslin, bir sözlə, hər hansı sosial qrupun qazandığı mənəvi inkişafın əsas meyarıdır. Bu meyarı mənimsəyənlər, öz şəxsi fəaliyyətində tətbiq edənlər milli-mənəvi sərvətlərə yiyələnmiş olurlar. Mənəviyyat kimi mənəvi mədəniyyət də mənəvi şüuru, əxlaqi münasibətləri və mənəvi fəaliyyəti əhatə edir.

**I fəslin "Problemin elmi, pedaqoji, metodik ədəbiyyatda və məktəb təcrübəsində qoyuluşu"** adlanan ikinci yarımfəslində kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılması problemini əhatəli və fundamental şəkildə tədqiq etmək məqsədilə həmin problemin həm ədəbiyyatda, həm də məktəb təcrübəsindəki qoyuluşu ilə də yaxından tanış olub, "Azərbaycan dili", "Həyat bilgisi", "Musiqi" və "Təsviri incəsənət" fənləri ilə bağlı dərslikləri təhlilə cəlb etdik.

Milli kurikulum proqramları əsasında tərtib olunan "Azərbaycan dili" dərsliklərində mənəvi mədəniyyəti özündə səciyyələndirən kifayət

qədər mövzular vardır. II sinifin "Azərbaycan dili" dərsliyində milli dəyərlərimizlə, adət-ənənələrimizlə, dinimizlə bağlı mövzular öz əksini tapsa da, onların heç biri şagirdlərin milli mənəvi mədəniyyəti ilə uzlaşdırılmamışdır. Eyni sözləri III sinif "Azərbaycan dili" dərsliyi haqqında da demək olar. Əslində "Azərbaycan dili" dərsliklərində verilən mövzular şagirdlərin milli-mənəvi mədəniyyətinin inkişafını təmin etməyə imkan verən mövzulardır. Lakin bu mövzuların heç biri hər iki dərslikdə məhz bu baxımdan izah edilməmişdir. Ayrı-ayrı dərslər üçün nəzərdə tutulan vətən, xalq, millət, mədəniyyət, musuqi, rəssamlıq kimi mövzuları özündə ehtiva edən mətnlərin heç birində milli-mənəvi mədəniyyətin formalaşdırılmasını təmin edə biləcək fikirlər, şərhlər, yanaşmalar, hətta suallar və ev tapşırıqları belə yoxdur.

Məktəb təcrübəsində də mənəvi mədəniyyətin qoyuluşu qənaətbəxş deyil. Naxçıvan şəhər və muxtar respublikanın kənd məktəblərində apardığımız müşahidələr də bunu sübut edir. Naxçıvan şəhər 1, 2, 4, 8, 10, 14 saylı tam orta məktəblərin ibtidai siniflərində apardığımız müşahidələr nəticəsində aydın oldu ki, ibtidai sinif müəllimləri kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması problemi ilə, demək olar ki, təsadüfdən-təsadüfə məşğul olurlar. Müəllimlərin əksəriyyəti illik iş planlarında şagirdlərin əxlaq tərbiyəsi ilə bağlı görülən işlərin sistemini verirlər. İbtidai sinif müəllimlərinin kiçik bir qismi tərbiyə işləri ilə bağlı gördükləri tərbiyə işlərinin sırasında mənəvi tərbiyə ilə əlaqədar görüləcək işlərdən bəhs edirlər.

I fəslin III yarımfəsil **"Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılması işində müəlliminin peşəkarlığı və səriştəliliyi əsas amillər kimi"** adlanır. Bu yarımfəsildə göstərilir ki, kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasında sinif müəllimin peşəkarlıq fəaliyyəti, səriştəliliyi xüsusi əhəmiyyətə malikdir. Bu gün qloballaşan dünyamızda yetişən gənc nəslə milli-mənəvi mədəniyyətin aşılanması xüsusi əhəmiyyət kəsb edir. Milli dəyərlərimiz, adət və ənənələrimiz, milli əxlaq normalarımız yetişən gənc nəslə təlim və tərbiyə prosesində, müəllimin yaradıcı, peşəkar fəaliyyəti prosesində aşılanır.

Qloballaşma dövründə müəllimin bir sıra kompotensiyalarının olmasını tələb edən təlim direktivləri təhsil verənin öz üzərində ciddi olaraq çalışmasını da diqtə edir. Əslində ibtidai sinif müəllimlərinin kompotensiyalarının yaranması onların milli-mənəvi mədəniyyət abidələrinə olan münasibətlərininin yaxşı mənada dəyişməsinə səbəb olar. Çünki müəllimin bu kompotensiyaları sırasında onun ilk növbədə pedaqoji ustalığı, pedaqoji səriştəliliyi və pedaqoji peşalkarlığı aparıcı rol oynayır. Bu keyfiyyətlərin

fonunda isə müəllimin əxlaqi-mənəvi keyfiyyətlərinin də olması vacib sayılır. Çünki sadalanan keyfiyyətlər olmasa müəllim öz şagirdlərinə milli-mənəvi mədəniyyət duyğularını aşılaya bilməz. Müəllimin peşəkarlığı, mənəvi keyfiyyətləri, mədəni davranışı, səliqəli geyimi, nümunəvi nitq mədəniyyəti onun mənəvi dünyası hesab olunur.

İbtidai sinif müəlliminin bu sahədə fəaliyyəti, pedaqoji ustalığı, səriştəliliyi və peşəkarlığı ilk növbədə onun yüksək əxlaqi keyfiyyətlərində, milli - mənəvi zənginliklərə, bəşəri dəyərlərə, geniş dünyagörüşünə sahib olmasında, öz ixtisasını dərindən bilməsində və onu öyrətmə qabiliy-yətində, pedaqoji, psixoloji və metodiki biliklərə vaqif olmasında, öz yetişdirmələrinə dərin hörmət və qayğıkeşliklə yanaşmasında, tədqiqatçılıq və natiqlik qabiliyyətində, yüksək mədəni davranışında, habelə sağlam, xoş görünüşündə, mehriban ünsiyyətində, səliqəli geyimində özünü göstərir.

Bütün fənn müəllimləri kimi ibtidai sinif müəllimləri də yüksək peşəkarlıq və səriştə nümayiş etdirərək hər bir mövzunun tədrisi ilə bağlı bilik, bacarıq və vərdişlər sistemini gerçəkləşdirməklə yanaşı, həm də şagirdlərin bir şəxsiyyət kimi formalaşdırılmasını təmin etməlidirlər. Əlbəttə ki, şəxsiyyətyönümlülük deyəndə şagird şəxsiyyətinin bütöv bir mənəvi simasını, onların mənəvi mədəniyyət bütövlüyünü formalaşdırmaq nəzərdə tutulur. Bunun üçün isə hər şeydən əvvəl səriştəli və peşəkar müəllimlər ordusu yetişməlidir. Yəni ibtidai sinif müəllimləri özləri üçün "peşəkar müəllim modeli"nin və "səriştəli müəllim modeli"nin yaradılmasına çalışmalıdırlar.

Bütün bunlar isə yüksək peşəkarlıq və səriştəli sinif müəllimi modelinin hazırlığı deməkdir.

Dissertasiyanın ikinci fəsli **"Təlim prosesində ibtidai sinif şagirdlərinin mənəvi mədəniyyətinin formalaşdırılmasının imkanları və yolları"** adlanır. Bu fəsil üç yarimfəsildən ibarətdir. **"İbtidai siniflərin "Azərbaycan dili" dərslərində mənəvi mədəniyyətin formalaşdırılmasının imkanları"** adlanan birinci yarımfəsildə göstərilir ki, milli kurikulum əsasında həyata keçirilən təlim prosesində kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması ibtidai sinif müəllimlərinin qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsində "Azərbaycan dili" dərslərinin imkanları daha genişdir. Bunun üçün milli kurikulum əsasında hazırlanan proqram materillarında və bu proqram əsasında hazırlanan dərsliklərdə istənilən qədər dəyərli mövzular vardır.

Hansı ki, təlim prosesində bu mövzulardan səmərəli şəkildə istifadə etməklə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətini günün tələbləri

səviyyəsində formalaşdırmaq olar.

Azərbaycan dili dərslərində uşaqlar folklor materialları ilə də tanış olurlar. Xalq yaradıcılığı, onun xüsusi bir sahəsi olan uşaq folkloru yetişən nəslin əxlaqi, əqli, əmək, estetik və fiziki tərbiyəsi ilə bağlı ehtiyac və duyğulardan yaranmışdır. Folklor bütövlükdə insanın mənəvi yüksəlməsinə və cismən sağlam böyüməsinə istiqamətlənmişdir. Bu materiallarda insanlarını bir-birinə, ümumi işə münasibəti, qəhrəmanın əməksevərliyi, insana qayğısı, əxlaqi hərəkəti əks edilir. Müəllimlə birlikdə şagirdlər xeyirxahlıq, əməkdaşlıq, həssaslıq, qayğıkeşlik, zəifləri, köməksizləri müdafiə, hər hansı çatışmazlığın aradan qaldırılması və s. nümunələri folklor materiallarından seçirlər.

Müşahidələrimiz göstərir ki, səriştəli müəllimlər kiçikyaşlı məktəblilərin nağıla olan marağını nəzərə alaraq onlardan humanist keyfiyyətlərin tərbiyə edilməsi üçün geniş istifadə edirlər. “Ağ atlı oğlan”, “Uçan xalça”, “Qızıl şamdan”, “Yetim İbrahimin nağılı”, “Dərzi şagirdi Əhməd”, “Daşdəmirin nağılı”, “Ovçu Pirim”, “Göyçək Fatma” və s. bu kimi nağıllar mövzu, ideya xüsusiyyətlərinə, tərbiyəvi mahiyyətinə görə bütün yaş dövrləri üçün, o cümlədən, kiçik yaşlı məktəblər üçün də anlaşıqlıdır. Folklorun bu janrı vətənə məhəbbət, dogma el-obaya bağlılıq, öz xalqına dərin və sonsuz sevgi, şərə, pisliyə, qorxaqlığa nifrət hissləri ilə zəngindir. Düzlük, doğruçuluq, sədaqət, əməksevərlik, insana məhəbbət, yaşlılara, valideynlərə hörmət və ehtiram və s. bu kimi yüksək əxlaqi keyfiyyətlər nağıllarda tərənnüm olunan əsas insani xüsusiyyətlərdir. Bu nağıllar kiçikyaşlı məktəblilərin ruhunu saflaşdırır, mənəvi aləmini zənginləşdirir. Ona görə də belə nağıllara geniş yer vermək və onların təhlilini aparmaq məqsədəuyğundur.

Nəsildən-nəsilə ötürülən Azərbaycan folkloru qiymətli əxlaqi normaları özündə birləşdirməklə çox böyük tərbiyə imkanlarına malikdir. Ona görə də ibtidai sinif müəllimi folklor nümunələrini şagirdlərə təkcə əzbərlətmək və öyrətməklə kifayətlənməməlidir.

İbtidai siniflərin dərsliklərində sayaçı sözlərinə, əmək nəğmələrinə, laylalara, oxşamalara, bayatılara, atalar sözləri və məsəllərə, rəvayətlərə, dastanlardan parçalara, nağıllara geniş yer verilmişdir. Şagirdləri bu nümunələrlə tərbiyə etmək olduqca faydalıdır.

İkinci fəslin **“Həyat bilgisi fənninin tədrisində şagirdlərin mənəvi mədəniyyətinin formalaşdırılması yolları”** adlanan ikinci yarımfəslində qeyd edilir ki, ibtidai siniflərdə bütün fənlərin tədrisində kiçikyaşlı məktəblilərinmənəvi mədəniyyətinin formalaşdırılması üçün imkanlar vardır. Lakin bu fənlər içərisində şagirdlərin mənəvi mədəniyyətinin formalaşdırıl-

masına daha çox təsir göstərmək imkanları olan "Həyat bilgisi" fənnidir.

"Həyat bilgisi" fənni şagirdlərin mənəvi cəhətdən saflaşmasına, onlarda milli mədəniyyətin formalaşmasına daha yaxşı, daha müfəssəl istiqamət verir. I-IV siniflərdə tədris olunan "Həyat bilgisi" fənni üçün tərtib olunan dərsliklərin hər birində şagirdlərin milli-mənəvi mədəniyyətinin inkişafı üçün müvafiq mövzular vardır.

Məlum olduğu kimi, başqa fənlərdən fərqli olaraq, "Həyat bilgisi" konkret bir elmin əsasını öyrətmir. Fənnin tədrisində şagirdlərdə mənəviyyat, sağlamlıq, təhlükəsizlik, fövqəladə hallarda mühafizə, vətəndaşlıq, ekologiya, cəmiyyət haqqında bilik və bacarıqlar formalaşdırılır. Buna görə də bu fənn inteqrativ fənn adlanır. Bir sözlə, bu fənnin tədrisi şagirdlərdə canlılara dair zəruri bilik və bacarıqlar mənimsətməklə, onlarda ekoloji mədəniyyət, estetik zövq, humanistlik, bəşərilik və vətənpərvərlik kimi mənəvi keyfiyyətlər formalaşdırır.

Bütün "Həyat bilgisi" dərsləri uşaqlarda təbiətə məhəbbət, ona qayğıkeş münasibət, qüvvə və imkana görə onu mühafizə etmək kimi keyfiyyətlər aşılayır. Yalnız biliklər əsasında şagirdlərə təbiətin zənginliklərinə qayğıkeş münasibət tərbiyə etmək olar. Bu mövzuların tədisi zamanı yüksək humanist yanaşmalar şagirdin sonrakı sosial taleyinə güclü təsir göstərmək imkanına malikdir. Xeyirxalıq və gözəlliyi duymaq hissinin tərbiyəsi işində "Həyati bilgisi" fənninin əhəmiyyəti böyükdür.

İkinci fəslin **"Musiqi" və "Təsviri incəsənət" məşğələlərində kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması yolları"** adlanan üçüncü yarımfəslində göstərilir ki, milli kurikulumun tələblərinə müvafiq olaraq "Musiqi" və "Təsviri incəsənət" fənləri üçün hazırlanmış proqram və dərsliklərdə yetişən nəslin mənəvi mədəniyyətinin inkişaf etdirilərək, formalaşdırılaraq təkmilləşdirilməsində rol oynayan xeyli sayda mövzular vardır. Bu sırada musiqi üçün hazırlanan fənn dərsliklərini də dəyərləndirmək lazımdır. Musiqi dərslərində ibtidai sinif şagirdlərinin estetik, bədii tərbiyəsi ilə yanaşı, mənəvi mədəniyyətinin də formalaşdırılması üçün geniş imkanlar vardır. Hansı ki, bu imkanlardan məqsədyönlü, planlı və mütəşəkkil olaraq istifadə etməklə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması yollarını müəyyənləşdirmək olar.

Musiqi dərslərində kiçikyaşlı məktəblilərin milli-mənəvi mədəniyyətinin formalaşdırılması üçün kifayət qədər imkanlar vardır. Bu imkanlardan istifadə etmək üçün səmərəli yollar da mövcuddur. Musiqi dərslərində Azərbaycan xalqının milli koloritini özündə əks etdirən xalq mahnıları, xalq rəqsləri, oyun havaları, muğamlar, muğam təsnifləri, muğam rəngləri milli-mənəvi mədəniyyət nümunələri kimi şagirdlərə təqdim olunur. Belə milli mədəniyyət nü-

munələrimizin təqdimatı zamanı ibtidai sinif müəllimləri proqram tələblərinə müvafiq olaraq musiqi dərsliklərindən düzgün faydalanmağı bacarmalıdırlar.

İbtidai təhsilin birinci siniflərindən başlayaraq "Təsviri incəsənət" məşğələləri də keçirilir. "Təsviri incəsənət" məşğələləri uşaqların estetik tərbiyəsinin formalaşdırılmasında mühüm əhəmiyyətə malik məşğələlərdəndir. Bu məşğələlərdə uşaqlar ilk öncə karandaşı tutmağı, onu işlətməyi öyrənirlər. Uşaqlar rənglərlə, rəngli karandaşlarla, flamastrla, fırça ilə, quaşla tanış olurlar, onları işlədirlər. Uşaqlar həm öz fantaziyalarına uyğun şəkillər çəkir, həm də naturadan, hər hansı bir cismə baxıb onun şəklini çəkməyi öyrənirlər. Bütün bunlar uşaqların bədii yaradıcılıq qabiliyyətini inkişaf etdirir, estetik zövq və mədəniyyətlərini formalaşdırır.

Bir sözlə, **"**Musiqi" və "Təsviri incəsənət" dərslərində musiqi və təsviri mədəniyyət nümunələri əsasında aparılan dərslərdə məqsədyönlü, planlı, mütəşəkkil iş həyata keçirildikdə kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətinin formalaşdırılmasına nail olmaq olar.

Dissertasiyanın üçüncü fəsli **"Dərsdənkənar tədbirlərdə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasının imkan və yolları"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.**"Dərsdənkənar tədbirlər prosesində kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılmasının imkanları"** adlanan birinci yarımfəsildə vurğulanır ki, şagirdlərlə aparılan dərsdənkənar tədbirlər onların hərtərəfli inkişaflarına kömək edir. Belə ki, adət-ənənələrimizə sadiqlik, milli kökə bağlılıq, inam tərbiyə etmək dərsdənkənar aparılan işlərin mahiyyətini təşkil edir. Dərsdənkənar işlər mahiyyət etibarı ilə eyni məqsədə xidmət edib, şəxsiyyətin hərtərəfli inkişafı, gənc nəslin həyata hazırlanması sahəsində məktəbin qarşısında qoyulan vəzifələrin həyat keçirilməsinə yönəldilir.

Dərsdənkənar işlərin təşkili zamanı kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması işində bir sıra səmərəli yollardan istifadə etmək lazım gəlir. Yekun olaraq bədii yaradıcılıq dərnəklərinin təşkili yolu ilə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətini formalaşdırmaq mümkündür. Bədii yaradıcılıq məktəblərində poeziya, bədii qiraət, xor, rəqs, musiqi, rəsm, qrafika, dram, bədii yaradıcılıq studiyaları dərnəklərini xüsusi qeyd etmək lazım gəlir. Çünki bədii yaradıcılıq dərnəklərinin hər birində təqdim edilən, öyrədilən bədii nümunələr şagirdlərin estetik bədii zövqləri ilə yanaşı, mənəvi mədəniyyət tərbiyəsinin inkişafı üçün stimul yaradır.

III fəslin "**Asudə vaxtın təşkili zamanı kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması yolları"** adlanan ikinci yarımfəslində qeyd edilir ki, asudə vaxt düzgün təşkil olunduqda məktəblidə

əməyə, incəsənətə, mənəvi-əxlaqi tədbirlərə, kitab mütaliəsinə maraq güclənir, onlarda mədəniyyət və incəsənət nümunələri ilə tanış olmaq həvəsi artır. Asudə vaxtdan düzgün istifadə forması şəxsiyyətin şüur və əqidəsinə, həyata baxışına təsir edir, məktəblilərin mənəvi mədəniyyətinin inkişafına təkan verir. Bu baxımdan uşaq kitabxanaları gənc nəslin tərbiyəsində, mənəvi mədəniyyətinin formalşmasında misilsiz təsir qüvvəsinə malikdir. Gənc nəslin tərbiyəsi və mütaliəsi ilə məşğul olan hər bir kitabxanaçı işini elə qurmalıdır ki, yetişən hər bir gənci dövrün tələbinə cavab verə biləcək bilik və bacarıqlara yiyələndirə bilsin.

Bədii əsərlər uşaqların hisslərinə, şüuruna və davranışına müsbət təsir göstərir, onların şəxsiyyət kimi formalaşmasına, mənəvi mədəniyyətinin inkişafına xeyli kömək edir. Oxucular bədii ədəbiyyatın köməyi ilə bir sıra həyat hadisələrini daha yaxşı mənimsəyir, düzgün anlayırlar.

Asudə vaxtın səmərəli təşkili üçün idmanla bağlı maraq kurslarının yaradılması da faydalıdır. Asudə vaxt zamanı kiçikyaşlı məktəblilərin maraq kurslarında idmanın bir sıra növləri ilə məşğul olmaları onların fiziki mədəniyyətinin inkişafı ilə yanaşı, mənəvi mədəniyyətinin inkişafı üçün də stimul yaradır.

Bu gün respublikamız müharibə şəraitində yaşayır. Hazırda fiziki cəhətdən hazırlıqlı, milli-mənəvi tərbiyəyə malik və vətəni hədsiz dərəcədə sevən məktəblilərin tərbiyə olunmasına böyük ehtiyac vardır.

Dissertasiyada aşağıdakı nəticələrə gəlinmişdir:

-Mənəvi mədəniyyətin bir sıra elementlərinin təlim-tərbiyə prosesində təlqin edilməsi şagirdləri mənəvi cəhətdən saflaşdırır. Şagirdlərin mədəniyyət nümunələrilə tanışlığı onların əxlaqının saflaşdırılmasını təmin edir. Əxlaqın saflaşdırılması isə mənəvi mədəniyyətin formalaşmasına yol açır.

-Müasir dövrdə cəmiyyətdə gedən dərin dəyişikliklər prosesində, ümumtəhsil məktəblərində təlim-tərbiyə sahəsindəki işləri tamamilə yenidən qurmaqla kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin inkişafının formalaşdırılmasını və təkmilləşdirilməsini stimullaşdırmaq mümkündür.

-Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında respublikanın milli, adət və ənənələrinin özünəməxsus xüsusiyyətlərinin proqram və dərsliklərdə, tədrisdə nəzərə alınması vacibdir.

-Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyət tərbiyəsi işinə kiçik məktəb yaşı dövründən başlanması vacibdir. Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında qabaqcıl məktəb təcrübəsinin diqqətlə öyrənilməsi mühüm əhəmiyyəti kəsb edir.

-Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında

məktəbdənkənar tədbirlərin mütəşəkkil, planlı təşkili mühüm əhmiyyət kəsb edir.

-Kiçikyaşlı məktəblilərə aşılanan humanizm hissləri onların mənəvi mədəniyyətinin aşkara çıxarılmasını və inkişaf etdirilərək formalaşdırılmasını təmin edir.

-İbtidai siniflərin “Azərbaycan dili” dərslərində kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətini formalaşdırmağa xidmət edən imkanların üzə çıxarılması bu sahədə yeni səmərəli yolların yaranmasına səbəb olur.

-“Həyat bilgisi” fənninin tədrisi prosesində mənəvi mədəniyyətin formalaşdırılması ilə bağlı iş üsulları, xüsusilə müəllim tərəfində məqsədyönlü, planlı şəkildə hazırlanan didaktik materiallar bu problemin həllinə dinamik surət verir.

-“Musiqi” və “Təsviri incəsənət” məşğələləri üçün məqsədyönlü şəkildə hazırlanan öyrədici didaktik materialların tədrisi planlı şəkildə təşkil edildikdə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətinin formalaşdırılması imkanlarını artırır. Həyata keçirilən eksperimental işin müvafiq mərhələlərində aparılan sınaq-təcrübə işləri də bunu sübut etdi.

-Dərsdənkənar tədbirlərdə kiçikyaşlı məktəblilərin mənəvi mədəniyyətini formalaşdıran səmərəli yollardan, spesifik iş formalarından məqsədyönlü, planlı və mütəşəkkil olaraq istifadə edildikdə haqqında danışılan problemin hərtərəfli həllinə nail olmaq mümkündür.

-Gecələr, görüşlər, müsabiqələr, tədris ekskursiyaları, idman klubları, bədii yaradıcılıq dərnəkləri, teatr studiyaları, əmək və peşə studiyaları, maraq kursları və s. bu kimi dərsdən və məktəbdənkənar tədbirlərdə şagirdlərin milli mənəvi dəyərlərlə, mədəniyyət nümunələri ilə, mədəni fəaliyyət proqramı üzrə spesifik işlərlə tanışlığı onların mənəvi mədəniyyətinin inkişafında mühüm rol oynayır.

-II, III, IV siniflər üzrə müəyyənləşdirilən eksperimental siniflərdə tətbiq edilən öyrədici didaktik materiallar dissertasiyanın elmi fərziyyəsinin doğru olduğunu sübuta yetirmişdir. Eksperimental siniflərdə aparılan anket sorğularının nəticələrinin, nəzarətdə saxladığımız kontrol siniflərdə apardığımız anket sorğularının müqayisəli təhlili də bunu sübut etmişdir. Bütün bunlarla bərabər, bir sıra təkliflərin də verilməsini vacib hesab edirik.

- Proqram və dərsliklərin imkanlarından geniş istifadə etmək məqsədilə proqram və dərsliklərdə məktəblilərin mənəvi mədəniyyət tərbiyəsinin səviyyəsini yüksəltməyə xidmət edən mövzuların sırasını genişləndirmək faydalıdır.

-Ailə uşağın tərbiyəsində ilk mədəniyyət ocağıdır. Uşaq bu ilk tərbiyə ocağında yaxın adamlara qayğı göstərməyi və nəzakətli olmağı, mədəniyyəti öyrənir. O, xeyirxahlığı, qərəzsizliyi, ata və anaya hörmət və ehtiramı burada

öyrənir. Ona görə ailənin məktəblə əlaqəsinin bu aspektdə qurulması yaxşı olar.

-Kiçikyaşlı məktəblilərdə mənəvi mədəniyyət tərbiyəsinin bünövrəsi etnopedaqoji materiallarda qoyulmuşdur. Şagirdlərin etnopedaqoji materiallarla tanışlığını təmin edən ən müasir təlim texnologiyalarının müəyyənləşdirilməsi faydalı olardı.

-Milli-mənəvi dəyələrin təbliğinin dövlət səviyyəsində, proqramlaşdırılmış şəkildə həyata keçirilməsi yaxşı olar. Bunun üçün mənəvi mədəniyyət mərkəzlərinin, kiçikyaşlı məktəblilərin mədəniyyət sarayı kimi ünvanların yaradılması haqqında danışılan problemin həlli üçün çox faydalı olar.

**Tədqiqatın əsas məzmunu aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Uşaqların mənəvi tərbiyəsinin formalaşmasında Heydər Əliyev dəyərlərindən istifadə yolları / Azərbaycan Müəllimlər İnstitutu. “Heydər Əliyev ideya-nəzəri irsində insan amili” mövzusunda Beynəlxalq konfransın materialları (27 aprel 2013), Naxçıvan: “Məktəb” nəşriyyatı, 2013, s. 208

2. Kiçikyaşlı uşaqların mənəvi mədəniyyətinin formalaşdırılmasında oyunların rolu / “Azərbaycanda Təhsil Quruculuğunun prioritetləri: Müasir yanaşmalar” mövzusunda Beynəlxalq elmi konfransının materialları. Naxçıvan şəhəri, 5-6 iyun 2015-ci il. Bakı: Mütərcim, 2015, səh. 215-217.

3. Təlim prosesində kiçikyaşlı məktəblilərin mənəvi-əxlaqi keyfiyyətlərinin etnopedaqoji vasitələrlə zənginləşdirilməsi / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2014, s. 296-297

4. Воспитательное значение подготовки детей дошкольного возраста к общественно-полезному труду // “Инновация, качество образования и развитие”. Сборник материалов III Международной научной конференции (под общей реакцией профессора А.Д. Заманова). 2014, 240 с.

5. İbtidai siniflərdə qiymətləndirmə və mənəvi tərbiyə məsələlərinin qoyuluşu // Naxçıvan Müəllimlər İnstitutunun 90-illik yübileyi ilə əlaqədar “Təhsil kurikulumları: nəzəri problemlər” mövzusunda keçirilmiş Respublika konfransının materialları (15 aprel 2014). Naxçıvan: “Məktəb” nəşriyyatı, 2014, s. 27-29

6. Şagirdlərin mənəvi tərbiyəsinin formalaşdırılmasında sinifdənxaric işlərin rolu / Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti. “Humanitar elmlərin öyrənilməsinin aktual problemləri” ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bakı: Mütərcim, 2014, №1, s. 222-225

7. Kiçikyaşlı uşaqların mənəvi tərbiyəsində Nizami Gəncəvi əsərləri-

nin rolu // "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusuna həsr edilmiş elmi-praktik konfransın materialları. Heydər Əliyev-91 (07 may 2014), Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan: "Məktəb" nəşriyyatı, 2014, s.87-89

8. Tədris prosesində kiçikyaşlı uşaqlarda milli şüurun formalaşdırılması // "Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" mövzusunda Beynəlxalq elmi konfransının materialları. Naxçıvan, 16-17 dekabr 2014-cü il. Bakı: Mütərcim, 2014, s.114-115

9. Kiçikyaşlı uşaqların müstəqil işinin təşkili və onun tədris prosesində rolu / "Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr"mövzusunda Respublika elmi konfransının materialları. Bakı şəhəri, 16 dekabr 2015–ci il. Bakı: Azərbaycan Respublikasının Təhsil Problemleri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, s. 71-72

10. Məşğələdən kənar vaxtlarda kiçikyaşlı uşaqların mənəvi mədəniyyətin formalaşdırılması üzrə işin təşkili / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bakı: Mürtəcim, 2016, № 2, s. 264-267

11. Kiçikyaşli məktəblilərdə mənəvi mədəniyyətin formalaşdırılmasında sinif müəlliminin rolu / Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. 2016, Cild 12, №3 , s. 29-33

12. Mənəvi mədəniyyət tərbiyəsi / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış" mövzusunda keçirilmiş Ümumrespublika elmi-praktik konfransının materialları (4-5 may 2016). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2016, s. 75-78

13. Воспитание младших школьников на основе нравственных ценностей / Збірник наукових праць "Педагогічні науки" включено до переліку наукових фахових видань Украіни з педагогіки на підставі Наказу МОН Украіни від 10 лютого 2010 року № 1-05/1 (бюлетень №3, 2010 р.); Наказу МОН Украіни, №241 від 09.03.2016 року (додаток № 9), Херсонський державний университет, 2016, с. 89-92

14. The types of formation of spiritual culture of juvenile students at organization of leisure time / The scientific method, 2017/ VOL.1,№ 5(5)/ (Warszava, Poland) ISSN 2708-5341, p. 25-29

15. Возможности формирования нравственной культуры младших школьников / XXII Международная заочная конференция "Развитие науки в XXI веке", 2 часть, г. Харьков 2017, Научно-информационный центр "Знание", с. 23-29

**Т.Г.Гусейнова**

## Системы работы по формированию духовной культуры у учеников младшего школьного возраста

Диссертация состоит из введения, трех глав (восьми параграфов), заключения и списка литературы.Во «Введении» обосно-вывается актуальность темы, излагаются цели и задачи исследования, история исследования темы, научная новизна, научное и практическое значение.

Первая глава, названная «Научно – теоретические и педагогические основы духовной культуры», состоит из трех параграфов. Здесь анализируются методологические и педагогические основы духовной культуры, рассматриваются педагогические понятия духовности, духовного воспитания, морали и поведения. В целях всестороннего и фундаментального исследования проблемы формирования духовной культуры и младших школьников проанализированы учебники по предметам «Азербайджанский язык», «Познание мира», «Музыка» и «Изобразительное исскуство». При этом на первый план выдвинуты вопросы профессионализма и компентенции классного учителя в формировании духовной культуры у младших школьников.

Вторая глава диссертации называется «Возможности и пути формирования духовной культуры у учеников начальных классов в процесе обучения». Эта глава состоит из трех параграфов. В данной главе рассматривается вопрос о возможнастях и путях предмета «Азербайджанский язык» в формировании духовной культуры и младших школьников. При этом подчеркивается, что проведением целенаправленной, планированной и организованной работы на уроках по предметам «Познание мира», «Музыка» и «Изобразительное исскуство» можно сформировать духовную культуру младших школьников.

Третья глава «Возможности и пути формирования духовной культуры у младших школьников на внеурочных мероприятиях» состоит из двух  параграфов. В этой главе исследуются возможности и пути привития духовной культуры на внеурочных мероприятиях, в ходе проведения которых зафиксированы интересные результаты. В ней констатируется, что правельное использование свободного времени действует на сознание и убеждение личности, на жизненный взгляд младших школьников, способствует развитию у них духовной культуры.

В заключительной части обобшены результаты исследования и представлены конкретные выводы.

**T.H. Huseynova**

**System of work on** moral **culture formation of younger school children.**

The thesis consists of introduction, 3 chapters, 8 semi-chapters, conclusion and selected references.
İntroduction was dealt with actuality of the theme, aims and objectives of research, searching history of the theme, scientific innovation, scientific and practical importance.

First chapter which is called "Scientific-theoretical and practical bases of moral culture" consists of 3 semi-chapters. İn this chapter methodological, pedagogical bases of moral culture are analysed, the essence, aim of moral culture are explained from scientific point of view, pedagogical notions like morality, moral upbringing, moral, decency are explained. For the purpose of detailed and fundamental search of the problem of moral culture formation of under school age pupils, textbooks connected with subjects like "The Azerbaijani language", "Hayat bilgisi", "Music", "Art" were involved into analysis, at the same time professional activity, skillfulness issues of form teacher in the moral culture formation of under school age pupils were put forward.

Second chapter of the thesis is called "Ways and possibilities of the moral culture formation of primary class pupils in teaching process". This chapter consists of 3 semi-chapters. İn this chapter the issue of ways and possibilities of "The Azerbaijani language" subject in the moral culture formation on school children was specially stated, at the same time it was noted that, it is possible to obtain moral culture formation of under school age pupils, in case to carry expedient, planned and organized work at "Hayat bilgisi", "Music" and "Art" lessons as well.

Third chapter that is called "Ways and possibilities of moral culture formation of under school age pupils at extracurricular measures" consists of 2 semi-chapters. İn this chapter ways and possibilities of applying moral culture in extracurricular measures process were searched, interesting scientific results were obtained as a result of carried researches in this direction. İt is noted that correct usage form of leisure time influences to consciousness and conviction, view on life of a person, stimulates their moral culture development.

İn the part of conclusion the results of research were generalized and explained concretely.

Çapa imzalanmış 26.10.2018.
Formatı 60X90 1/16 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 1.7 ç.v.
Sifariş № 795. Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАХИЧЕВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ТАХИРА ГАСАН КЫЗЫ ГУСЕЙНОВА**

# СИСТЕМЫ РАБОТЫ ПО ФОРМИРОВАНИЮ ДУХОВНОЙ КУЛЬТУРЫ У УЧЕНИКОВ МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора наук по педагогики

**НАХИЧЕВАНЬ - 2018**